# KIMYƏVI BIRLƏŞMƏLƏRDƏ π (pi) RABITƏ SAYLARININ RIYAZI IFADƏSI. REAKSIYA ZAMANI RABITƏ SAYLARI DƏYIŞMƏSININ RIYAZI HESABLANMA METODIKASI

**M.M. Abbasov[1], Z.S. Abbasov[2], D.S. Məmmədova[3], Nevrat Güncegörü Ahmet oğlu[4]**

*[1]Pedaqoji elmlər doktoru, [2]Dissertant, [3]Xəzər rayonu 230 №-li orta məktəb,*

*[4]Nərimanov rayonu İstək liseyi*

Məlumdur ki, kimyəvi birləşmələrdə rabitə saylarının tapılması qrafik formullar vasitəsi həyata keçirilir. Sadə birləşmələrdən fərqli olaraq bəzi mürəkkəb maddələrin qrafik formullarının tərtib olunması zamanı müəyyən çətinliklər meydana çıxır və çox vaxt tələb olunur. Lakin, ilk dəfə təklif olunan düsturlar vasitəsi ilə bütün qeyri-üzvi və üzvi birləşmələrdə ümumi, siqma ($\sigma$), $\pi$ (pi) rabitə saylarını qrafik formullardan istifadə etmədən dəqiq hesablamaq artıq mümkünüdür.

Kimyəvi birləşmələrdə ümumi və siqma ($\sigma$) rabitə saylarının riyazi üsulla, düsturlar vasitəsi ilə hesablanması barədə əvvəlki məqalələrimizdə məlumat vermişdik [1-3].

Ümumi və siqma ($\sigma$) rabitə saylarını hesablamaq üçün təklif olunan düsturların fərqini tapmaqla qrafik formullardan istifadə etmədən $\pi$ (pi) rabitə saylarını hesablamaq olar.

Ümumi (1) və siqma ($\sigma$) (2) rabitə saylarını hesablamaq üçün ilk dəfə təklif olunan düsturlar fərqini tapmaqla $\pi$ (pi) rabitə saylarının riyazi ifadəsinin çıxarılması aşağıda göstərilmişdir.

$$A_{(üm)} = \frac{a_1e_1 + a_2e_2 + \ldots + a_ne_n}{2} \qquad (1)$$

$$A_{(\sigma)} = N_{(üm)} + \mathrm{S} - 1 \qquad (2)$$

$$N_{(üm)} = a_1 + a_2 + \ldots + a_n$$

$$A_{(\pi)} = A_{(üm)} - A_{(\sigma)} = \frac{a_1e_1 + a_2e_2 + \ldots + a_ne_n}{2} - (a_1 + a_2 + \ldots + a_n + S - 1) =$$

$$= \frac{a_1e_1 + a_2e_2 + \ldots + a_ne_n - 2a_1 - 2a_2 - \ldots - 2a_n - 2s + 2}{2} =$$

$$= \frac{a_1(e_1-2)+a_2(e_2-2)+...+a_n(e_n-2)+2\,(1-S)}{2}$$

Beləliklə;

$$A_{(\pi)} = \frac{a_1(e_1-2)+a_2(e_2-2)+...+a_n(e_n-2)+2\,(1-S)}{2} \qquad (3)$$

Burada, $A_{(\pi)}$ – kimyəvi birləşmələrdə $\pi$ (pi) rabitələrinin ümumi sayı, $a_1$, $a_2$ – birləşmədə müxtəlif element atomlarının sayı, $e_1$, $e_2$ – müvafiq olaraq həmin elementlərin valentlikləri, $S$ – tsiklik (qapalı) saydır.

Linolen turşusu molekulunda $\pi$ (pi) rabitə saylarının riyazi metodla hesablanmasını nəzərdən keçirək.

$$A_{(\pi)[C_{17}H_{29}COOH]} = \frac{a_1(e_1-2)+a_2(e_2-2)+...+a_n(e_n-2)+2\,(1-S)}{2} =$$

$$= \frac{18(4-2)+30(1-2)+2(2-2)+2(1-0)}{2} =$$

$$= \frac{36-30+0+2}{2} = \frac{38-30}{2} = 4$$

Qrafik formulda $\pi$ (pi) rabitə saylarının 4-ə bərabər olduğu aydın görünür.

$$CH_3\text{-}CH_2\text{-}CH{=}CH\text{-}CH_2\text{-}CH{=}CH\text{-}CH_2\text{-}CH{=}CH\text{-}(CH_2\text{-})_7C\begin{smallmatrix}\nearrow O\\ \searrow OH\end{smallmatrix}$$

Maye yağ molekulunda $\pi$ (pi) rabitə saylarının hesablanması aşağıda verilmişdir.

$$A_{(общ)\begin{bmatrix}CH_2OCOC_{17}H_{31}\\ |\\ CHOCOC_{17}H_{29}\\ |\\ CH_2OCOC_{17}H_{29}\end{bmatrix}} = \frac{a_1(e_1-2)+a_2(e_2-2)+...+a_n(e_n-2)+2(1-S)}{2} =$$

$$\frac{57(4-2)+94(1-2)+6(2-2)+2(1-0)}{2} =$$

$$\frac{114-94+0+2}{2} = \frac{22}{2} = 11$$

$\pi$ (pi) rabitə saylarının 11-ə bərabər olduğu qrafik formulda öz əksini tapması hesablamanın dəqiqliyini göstərir.

$$\begin{array}{l}
CH_2-O-\overset{\overset{O}{\|}}{C}-(CH_2-)_7CH=CH-CH_2-CH=CH-(CH_2-)_4CH_3\\
|\\
CH-O-\overset{\overset{O}{\|}}{C}-(CH_2-)_7CH=CH-CH_2-CH=CH-CH_2-CH=CH-CH_2-CH_3\\
|\\
CH_2-O-\overset{\overset{O}{\|}}{C}-(CH_2-)_7CH=CH-CH_2-CH=CH-CH_2-CH=CH-CH_2-CH_3
\end{array}$$

Beləliklə ilk dəfə təklif olunan düsturlar vasitəsi ilə qrafik formullardan

istifadə etmədən bütün qeyri-üzvi və üzvi birləşmələrdə ümumi (1), siqma ($\sigma$) (2), $\pi$ (pi) (3) rabitə saylarını dəqiq hesablamaq mümkündür.

**Kimyəvi reaksiyalar zamanı rabitə sayları dəyişməsinin riyazi hesablama metodikası**

Kimyəvi reaksiyaların istilik effektinin, maddələrin yanma, əmələ gəlmə istiliklərinin, reaksiyaların entalpiyasının, molekulun fəza quruluşunun və s. öyrənilməsində kimyəvi rabitələrin sayı, növü, valent bucağı, uzunluğu, enerjisi, tərtibi, doymuşluğu həlledici rol oynayır.

Məlumdur ki, kimyəvi reaksiyalar zamanı ilkin maddəni və ya maddələri təşkil edən atomlar arasında müəyyən valent rabitələri qırılır və əvəzində yeni rabitələrin yaranması hesabına reaksiya məhsulları əmələ gəlir.

Kimyəvi reaksiyalar zamanı başlanğıc maddələrdən reaksiya məhsulları əmələ gələn zaman rabitə sayları dəyişməsinin riyazi ifadəsinin tapılması istiqamətində aparılan tədqiqatlar müsbət nəticə verdi. Belə ki, kimyəvi reaksiyalar zamanı rabitə sayları dəyişməsini riyazi metodla, qrafik formullardan istifadə etmədən hesablamaq mümkün oldu. Bunun üçün aşağıdakı düsturdan istifadə etmək lazımdır.

$$\Delta A = \frac{a_1(e_1^{/} - e_1) + a_2(e_2^{/} - e_2) + ... + a_n(e_n^{/} - e_n)}{2}$$

Burada $\Delta A$ – reaksiyanın sağ və sol tərəfində olan kimyəvi rabitə sayları fərqi, $a_1$, $a_2$ – reaksiya zamanı valentliklərini dəyişən element atomlarının sayı, $e_1$, $e_2$ – müvafiq olaraq həmin elementlərin reaksiyanın sol, $e_1^{/}, e_2^{/}$ - sağ tərəfindəki valentlikləridir.

Hesablama nəticəsində müsbət qiymət alındıqda reaksiyanın sol tərəfi ilə müqayisədə sağ tərəfdəki kimyəvi rabitələrin sayı həmin qiymət qədər artır, mənfi qiymət aldıqda isə azalır. Əgər bu fərq sıfıra bərabər olarsa reaksiyanın sol və sağ tərəfində olan rabitə sayları ədədi qiymətcə bərabər olur.

Kimyəvi reaksiya zamanı rabitə saylarının dəyişməsinin riyazi metodla hesablanmasını nəzərdən keçirək.

$$4FeS_2 + 11O_2 \rightarrow 2Fe_2O_3 + 8SO_2$$

Reaksiya zamanı valentliklərini dəyişən dəmir və kükürd atomlarıdır.

$$\Delta A = \frac{a_1(e_1^{/} - e_1) + a_2(e_2^{/} - e_2) + ... + a_n(e_n^{/} - e_n)}{2} = \frac{4(3-2) + 8(4-2)}{2} = \frac{4+16}{2} = 10$$

Hesablamanın müsbət on ədədi qiymət alması reaksiyaya daxil olan maddələrdə müqayisədə reaksiya məhsullarında kimyəvi rabitə saylarının on

vahid artmasını göstərir. Maddələrin qrafik formullarını tərtib etməklə hesablamanın dəqiqliyini təsdiq etmək olar.



$$4 \cdot 3 + 11 \cdot 2 = 34 \qquad\qquad 2 \cdot 6 + 8 \cdot 4 = 44$$

$$44 - 34 = 10$$

Etinin (asetilenin) oksidləşmə reaksiyası tənliyində kimyəvi rabitə sayları dəyişməsinin riyazi üsulla, düstur vasitəsi ilə hesablanması aşağıda verilmişdir.

$3C_2H_2 + 8KMnO_4 + 4H_2O \rightarrow 3HOOC - COOH + 8MnO_2 + 8KOH$

Kimyəvi reaksiya zamanı valentliyi dəyişən yalnız manqan atomlarıdır.

$$\Delta A = \frac{a_1(e_1^{/} - e_1) + a_2(e_2^{/} - e_2) + ... + a_n(e_n^{/} - e_n)}{2} = \frac{8(4-7)}{2} = \frac{-24}{2} = -12$$

Hesablamanın “-12” qiyməti alması sol tərəfə nisbətən sağ tərəfdə kimyəvi rabitə saylarının 12 vahid azalmasını göstərir. Nəticənin dəqiqliyi qrafik formulda aydın görünür.



$$\Delta A = \frac{a_1(e_1^{/} - e_1) + a_2(e_2^{/} - e_2) + ... + a_n(e_n^{/} - e_n)}{2} = \frac{5(6-4) + 2(2-7)}{2} = \frac{10-10}{2} = 0$$

Hesablamanın nəticəsinin sıfıra bərabər olması başlanğıc maddələrdə və reaksiya məhsullarında kimyəvi rabitə saylarının bərabər olduğunu (dəyişmədiyini) göstərir. Maddələrin qrafik formullarını tərtib etməklə hesablamanın dəqiqliyinə əmin olmaq olar.



$$5 \cdot 4 + 2 \cdot 8 + 2 \cdot 2 = 40 \qquad 2 \cdot 8 + 8 + 2 \cdot 8 = 40$$

$$40 - 40 = 0$$

## İstifadə edilmiş ədəbiyyat:


1. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə rabitə saylarının riyazi ifa-dəsi", "Kimya məktəbdə" jurnalı 2 (22) 2008, s. 70-75.
2. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Üzvi birləşmələr valentlik rabitələrinin hesablanması", "Kimya məktəbdə" jurnalı, 3 (23) 2008, s. 3-12.
3. Салахов М.С., Багманов Б.Т., Аббасов З.С., «Математическое выражение количества связей в химических соединениях», «Актуальные проблемы гуманитарных и естественных наук», «Москва 2010», с. 41-44.
4. Salahov M.S., Bağmanov B.T., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə rabitə saylarının riyazi ifadəsi", "Pedaqoji universitet xəbərləri", "Bakı - № 5 - 2008", s. 12-17.
5. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Reaksiyalar zamanı kimyəvi rabitə saylarının dəyişməsinin riyazi ifadəsi", "Kimya məktəbdə" jurnalı 4 (24) 2008, s. 34-40.

***М.М.Аббасов, З.С.Аббасов, Д.С. Мамедова, Н.А.Гунгегору***

**Математическое выражение количества химических связей в соединениях**

## АННОТАЦИЯ

В статье впервые поставлена и решена проблема математического выражения количества химических связей в отдельно взятых молекулах и их изменения в ходе химической реакции.

***M.M. Abbasov, Z.S. Abbasov,* D.S. Mammedova,**
**Nevrat Ahmet oglu Guncegoru**

**Mathematical expression of quantity of chemical bonds in compounds**

## ANNOTATION

In the paper the problem of mathematical expression of quantity of chemical bonds in separately taken molecules and their change in the course of chemical reaction has been firstly taken and solved.

**Açar sözlər:** $\pi$ (pi) rabitə, siqma ($\sigma$) rabitə, qrafik formul, valentlik, tsiklik, entalpiya.

**Ключевые слова:** $\pi$ (пи) связь, сигма ($\sigma$) связь, графическая формула, валентность, циклических, энтальпия.

**Key words:** $\pi$ (pi) bond, siqma ($\sigma$) bond, qrafic formula, valence, cyclic, enthalpy.